# 4. ƏFSANƏNİN DƏMİR GÜCÜ

***İnsanın vətənə, torpağa, soydaşına olan münasibəti bütün zamanlar boyu filosofların tədqiqat, şairlərin, yazıçıların tərənnüm obyekti olmuşdur. Cəmiyyətin tarixi uzun əsrlər boyu insanların mübarizəsindən, bu mübarizədə təsdiqlənmiş həqiqətlərdən ibarətdir.***

**Əli Rza Xələfli**

Dünyanın görkəmli siyasi xadimləri sırasında qadınların azlığı mübahisəsizdir. Buna baxmayaraq, çox məşhur olan görkəmli qadın siyasətçilər var ki, onların adları xüsusi hörmətlə çəkilir. Siyasi-mənəvi irsləri öyrənilir. Yaşam yolları tədqiq olunur, onları siyasətə aparan güc mənbələri araşdırılır... və bütün hallarda mübarizlik, tapındıqları əqidə yoluna sədaqət hissləri daha qabarıq təqdir olunur. Hindistandan İndira Qandi, Banqladeşdən Bənazil Bhutto və, əlbəttə ki, Böyük Britaniyadan Marqaret Tetçer çox da uzun olmayan siyahıda ön sıradadır. Bunlar 20-ci əsr siyasətinin çox parlaq ulduzlarıdır.

Professor Qulu Məhərrəmlinin dünyanın görkəmli siyasi xadimləri haqqında çoxlu yazıları var. Professor özünəxas xatirə ovqatı ilə qələmə aldığı publisist yazılarında müraciət etdiyi portreti kifayət qədər işıqlı təqdim edə bilir.

Marqaret Tetçer haqqında da xüsusi rəğbətli düşüncələrlə qələmə aldığı yazısını müəllif *"Dəmir ledi əfsanəsi"* (23.04.2013) adlandırır. Ancaq təkcə bu adla kifayətlənmir. Tetçerin yaddaşlarda yaşayan obrazını belə bir tezislə də ümumiləşdirir: *"Tarixə qovuşur, amma M.Tetçer həqiqəti yaşayır"*. Neyləmək olar? Bu yaşam yolu məsələsində heç kimə güzəştə getməyən həyatın qanunudur. Ancaq 20-ci əsrin ikinci yarısında baş verən hadisələrin şahidi kimi bizim yaddaşımızda Marqaret Tetçerin əzəmətli obrazı həqiqətən özünü bu gün də qoruyub saxlayır.

Əvvəlcə bu qeydləri siyasi portretlər bölümündə işləmək istəyirdim. Həqiqətən Qulu Məhərrəmlinin *"Dəmir ledi əfsanəsi"* publisistik yazısı portret publisistikası janrına çox uyğundur. Ancaq bütün hallarda Tetçerin həyatı beynəlxalq münasibətlərlə daha çox bağlı olduğundan və dünya siyasətinə beynəlxalq müsətividə təsirinə görə fərqləndiyindən bu qeydləri də elə beynəlxalq münasibətlər bölümünə uyğun hesab etdim.

Yazıçı-publisist Qulu Məhərrəmli artıq dəfələrlə qeyd etdiyim kimi, publisistik hekayələtində daha çox şahidi olduğu həyat faktlarına əsaslanır və, əlbəttə ki, xatirə ovqatından xüsusi məharətlə yararlanır.O, Marqaret Tetçerlə iki dəfə görüşüb. Birinci görüş, 1992-ci ilin payızında Gülüstan sarayındakı tədbirdə olub. Və həmin görüşün nəticəsi olaraq geniş televiziya materialı hazırlayıb və sonra da maraqlı bir şərhlə çıxış edib.

İngilislər Bakıya 18-ci ildə də gəlmişdi. Əlbəttə, onları Bakıya neft qoxusu çəkib gətirmişdi. Elə Tetçerin də gəlişi, bəlkə də o vaxt ingilislərin yarımçıq qalmış arzularını gerçəkləşdirmək niyyəyti daşıyırdı. Bunları Qulu Məhərrəmli qeyd edir. Hər halda bizə də yaxşı məlumdur ki, bütün siyasi gedişlərin arxasında maraqlar dayanır.

Bundan sonra professor bir qədər tarixə qayıdır. Və bizə, daha doğrusu, yeni nəsil siyasətçilər və yazarlara Tetçeri bir az yaxından tanıtmaq istəyir: *"Böyük Britaniya tarixində ilk və hələlik yeganə qadın baş nazir, son 150 ildə ən uzunömürlü hökümətin başçısı olmuş Marqaret Tetçerin adı ötən əsrin axırlarında bütün dünyada bir əfsanə kimi dolaşırdı. Avropada onu güzəştsiz siyasət cəngavəri sayır, Amerikada ondan heyrətlə danışırdılar, üçüncü dünya ölkələrində isə bu ingilis xanımına, sadəcə qibtə və həsədlə baxırdılar. Mediada və siyasət mərkəzlərində ona əbəs yerə "Dəmir ledi" ləqəbini verməmişdilər. O, ənənəvi siyasətin gücünə və özünün polad iradəsinə arxalanaraq bütün fəaliyyəti boyu yaddaşlardan silinməkdə olan orta əsr İngiltərəsinin möhtəşəm obrazını dirçəldib təqdim etməyə çalışırdı. İnadkarlığına və sərtliyinə görə siyasətçilər onu, həm də "parlaq tiran" (H.Makmillan) və "İngiltərədə ən yaxşı kişi" (R.Reyqan) adlandırırdılar"*. Əlbəttə, Marqaret Tetçeri bütün ömrü boyu belə epitetlər müşayiət edib. Dünyanın ən qüdrətli siyasi xadimləri belə onunla qarşılaşanda qalib gəlmək əzmi haqqında düşünməyib, daha çox onunla ümumi dil tapmağa üstünlük veriblər. Əslində professor Qulu Məhərrəmli də elə bu məqamları diqqətə çəkmək istəyir.

Böyük Britaniyanın və eləcə də dünyanın məşhur adamı Tetçer müəyyən mənada Sovet İttifaqına münasibət baxımından Uinston Çörçillin davamçısı idi. Vaxtilə Çörçill Sovet İttifaqının üzərinə 14 ölkənin yürüşünü təşkil etməsi ilə fəxr edirdi, hərçənd ki, İkinci Dünya müharibəsində müttəfiq oldu. Tetçer də Sovet İttifaqına qarşı rəğbətli münasibət bəsləmirdi, bu, Qulu Məhərrəmlinin qeydlərində də görünür: *"M.Tetçerin "Şər imperiyası" adlanan SSRİ-dən zəhləsi gedirdi, sovet sistemini və kommunizmi bütün Avropa üçün böyük təhlükə sayırdı. Lakin M.Qorbaçov "yenidənqurması"ndan sonra münasibətlər bir az ılıqlaşmışdı. Sovet ictimaiyyəti ilk dəfə onunla 80-ci illərin axırlarında üz-üzə görüşə bildi. M.Tetçer həmin dövrdə Moskvaya səfərə hazırlaşırdı, həmin səfər ərəfəsində isə Mərkəzi televiziya Böyük Britaniyanın baş naziri ilə bir müsahibə hazırlamışdı"*. Bu, siyasətdə məlum protokol qaydasıdır. Hər hansı bir siyasətçi digər ölkəyə səfər etməlidirsə, həmin ərəfədə onun səfərinin məqsədi, əhatə dairəsi haqqında məlumatlar hazırlanır, yazılar dərc olunur. Elə həmin məqsədlə Tetçerlə olan müsahibə də onun siyasətçi təbiətinin, türklər demiş, kişi xarakterini üzə çıxarır: *"Həmin müsahibəni televiziyada sovet ideologiyasını tərənnüm edən dörd nüfuzlu siyasi icmalçı aparırdı. Qeyri-bərabər döyüşə bənzəyən və etik qaydaların tez-tez pozulduğu bu müsahibə mənim heç yadımdan çıxmır. Kişilər bir-birilə bəhsə girərək xanım Tetçerə suallar yağdırır, protokol müsahibəsinin hədlərini keçərək onunla mübahisəyə girişir, Qərbin demokratiya dəyərləri barədə baş nazirin arqumentlərini "heçə çıxarmağa" çalışırdılar. Bu qeyri-bərabər "döyüşdə" Tetçer nə qədər gözəl, ağıllı və məğrur görünürdü. O, briqada üsulu ilə üzərinə tökülmüş sovet jurnalistlərinin hücum xarakterli suallarına ağılla, təmkinlə, məntiqlə və həm də onu bir az da gözəlləşdirən təbəssümlə cavab verirdi. Uzun illər sovet adamlarına "mənfur" imperializmin dayaqlarından biri kimi təqdim edilən dövlətin təmsilçisi tamaşaçıların gözü qarşısında sülh göyərçini kimi qanad açıb uçurdu. O, ingilis hiyləgərliyi ilə deyil, dərin ağlının, zəkasının işığı ilə insanların qəlbini fəth edirdi. Həmin illərdə Tetçer təkcə ekran müsahibəsi ilə yox, Moskvaya səfəri, bu səfərin gedişində qeyri-standart davranışı ilə də sovet adamlarının gözündə böyük siyasətçi obrazını təsdiqləmişdi"*. Bu müsahibə Tetçerin sovet ideologiyası ilə açıq mübarizəsi, savaşı kimi üzə çıxmışdı. Tetçer son dərəcə ingilis soyuqqanlığını nümayiş etdirmiş, bütün hallarda, hətta avantüra mahiyyəti daşıyan suallara belə cavab verəndə təmkinini qorumuşdu.

Marqaret Tetçerin böyük siyasətin *"Olimp"*inə doğru yolu qətiyyən hamar olmayıb. O, ən çətin məqamlarda belə açıq oyun nümayiş etdirib. Qarşılaşdığı həlli çətin problemi insanlarla birgə həll etməyə çalışıb. Xüsusilə, Tetçerin məşhur Argentina məsələsi ilə bağlı riskli hərəkətləri onu dünya ictimaiyyətinə təkcə siyasətçi yox, həm də sərkərdə kimi təqdim etdi. Xüsusilə onun haqqında çəkilmiş filmlərdən birində əsgər analarına müraciəti son dərəcə yüksək səmimiyyəti ilə fərqlənirdi, analara ünvanladığı açıq məktub tarixin yaddaşında qiymətli bir fikir incisi kimi yaşamaqdadır. Professor həmin dövrün hadisələrinə həssaslıqla güzgü tutur: *"Hakimiyyətə gələndən iki il sonra, 1981-ci ildə keçirilmiş ictimai rəy sorğusunda məlum oldu ki, M.Tetçer Britaniya tarixində ən az sevilən baş nazir imiş (rəqibləri onu cəmiyyəti varlılara və kasıblara bölməkdə ittiham edirdi, lakin sonralar o, qaza, neftə, polada, telefona, hava yollarına dövlət monopoliyasını ləğv edərək bu sahələri özəlləşdirdi). Ancaq bircə il keçdi və Argentinaya qarşı Folklend müharibəsini udandan sonra onun Mühafizəkarlar partiyası parlament seçkilərində çox parlaq qələbə qazandı. Məhz bu müharibə onun siyasi bioqrafiyasında və İngiltərənin müasir tarixində möhtəşəm səhifəyə çevrildi"*. Mətnin bu hissəsini ayırmamaq, publisistin maraqlı düşüncələrinin arasına girməmək olardı. Amma özüm istədim ki, Tetçerin gərgin məqamlarda sərt və qətiyyətli hərəkətlərini oxucu daha dəqiq görsün. Beləliklə, Tetçer həmin Argentina məsələsi ilə bağlı müqaviməti öz qətiyyəti ilə qırdı: *"Xanım Tetçer bu müharibədə sözün əsl mənasında qibtəediləsi qətiyyət, güclü xarakter və tükənməz enerji nümayiş etdirdi. Folklend sahillərində Britaniyanın iki hərbi gəmisini batırması Argentinaya baha oturdu. Tetçer bütün hərbi-dəniz donanmasını və ölkə kəşfiyyatını ayağa qaldıraraq müstəmləkəçi əcdadlarının ruhunu dirçəltdi. O təkcə Argentinanı dizi üstə qoymadı, həm də onunla gizli əlaqəsi olan Avropa dövlətlərinin gözünün odunu aldı. İlk növbədə Peruya gəmivuran raketlər satmış Fransanı divara dirədi, qos-qoca Mitteranı hədələdi, NATO üzrə müttəfiqlərinə sərt mesajlar verdi. Qarşı tərəfə gizli rəğbətinə görə SSRİ-ni də cavabsız qoymadı. Nəticədə artıq 1982-ci ilin iyulunda Britaniya Folklend adalarına yenidən sahiblənmişdi"*. Tarix heç nəyi unutmur. İndi Tetçer yoxdu, ancaq qətiyyət, açıq və sərt danışmaq, sahibləndiyi gücü doğru məcraya yönəltmək bacarığı haqqında Tetçer həqiqətləri müasir dünyanın siyasətçiləri üçün dəyərli dərslərdir. Professor Qulu Məhərrəmli Tetçerlə ikinci görüşünü xatırlayır. 1995-ci ilin oktyabrında, ABŞ-da olmuşdu bu görüş. BMT-nin 50 illik yubileyinə həsr olunan həmin görüşdə AzTV-nin çəkiliş qrupuna rəhbərlik etmişdi: *"Heydər Əliyevin gərgin qrafik şəraitində C.Meycor, J.Şirak, İ.Rabin, U.Kekkonen, M.Olbrayt kimi nəhəng siyasət adamları ilə görüşləri indi də bir kino lenti kimi gözlərim önündən gəlib keçir"*. Professorun bu tipli yazıları ona görə canlı və maraqlı alınır ki, yaddaş təəssüratı kifayət qədər güclüdür.

Publisist üçün uğur gətirən əsas fakt şahidi olduğu məqamlardır. Qulu Məhərrəmli də elə şahidi olduğu məsələdən danışır: *"İqamətgahı Nyu-York otellərinin birində yerləşən H.Əliyevlə görüşə xanım Tetçer də gəlmişdi. Görüşün təxminən 5-6 dəqiqəsi jurnalistlərin iştirakı ilə keçdi, sonra uzun və qapalı söhbət oldu. Görüş bitəndən sonra baronessa Azərbaycan jurnalistləri ilə müsahibəyə razılaşdı. Otelin kiçik dəhlizində səslənən və hərəsi bir batman olan sualların çoxluğuna baxmayaraq (əslində, buna müsahibə demək olmazdı) açıq hiss olunurdu ki, siyasətçi xanım, sadəcə, xətrimizə dəyməmək üçün bizi yola verirdi. O səbəbdən də bütün sualları çox ümumi sözlərlə, həm də qısa cavablandırırdı, heç bir ciddi mətləbə toxunmurdu. Mən əlimdə mikrofon onunla lap üzbəüz dayanmışdım. "Dəmir ledi"-nin üz cizgilərini, gözlərində bir anlığa parlayıb-sönən qığılcımları, soyuqqanlı davranışını və bir də çoxmənalı siyasətçi təbəssümünü rahatca müşahidə edirdim..."*. Siyasətdə hər bir cizginin xüsusi rolu var. Qarşıda dayanan üzündə hər hansı bir ifadəni üzə çıxarırsa, bu artıq müəyyən məsələ haqqında rəy deməkdir. Yaxud gözlərin işıqlanma fokusu onun qəlbindən keçənlər haqqında müəyyən fikirləri ifadə edir. Professor Qulu Məhərrəmli məhz canlı insan obrazını, hələ zamanında əfsanələşmiş xarakteri müşahidə etdiyi kimi yazıya gətirə bilir.

Marqaret Tetçer obrazı həm də dövləti idarə etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. O, həqiqətlə fantaziyanı, səmimiliklə marağı ustalıqla birləşdirə bilirdi və biz də professor Qulu Məhərrəmli tərəfindən qələmə alınmış *"Dəmir ledi əfsanəsi"*ndə bu həqiqətləri görürük: *"Xanım Tetçer dövlət idarəçiliyi və siyasət sahəsində bir çox dəyərlər yaratdı, həm də Qərbin az qala unudulmuş dəyərlərini gün işığına çıxararaq onlara yeni həyat verdi. Bütün bunları o, "Dövləti idarəetmə sənəti" kitabında əks etdirib. Bu əsərdə bir çox parlaq müddəalar diqqəti cəlb edir. Tetçerə görə, məhz şəxsiyyətə, onun ləyaqətinə hörmət, mülkiyyətin toxunulmazlığı, müstəqillik və azadlığın qorunması, hüquqi zəmin, demokratiya kimi dəyərlər Avropanı hökmran mövqeyə çıxarmışdı. Ona görə də ağıllı və düşünülmüş hüquqi təminat həm cəmiyyət, həm də iqtisadiyyat üçün misilsiz əhəmiyyət kəsb edir. O, dövlət - vətəndaş münasibətlərinə də çox orijinal yanaşaraq hesab edir ki, dövlət cəmiyyətdən fərqlidir. Dövlət insanların ağası deyil, nökəridir, ona görə də dövlət hökmranlıq etməməli, yalnız xidmət etməli olduğuna inanmalıdır"*. Professor sözünün sonunda hərb və sülh məsələsində *"Dəmir ledi"*nin demokratiya prizmasından yanaşmasını onun orijinallığı hesab edir. Professorun qeyd etdiyi kimi *"Dəmir ledi"* o siyasətçilərdən idi ki, haqqında danışdığı dəyərlərə sadiq idi və əslində tarixi yaradırdı.

Marqaret Tetçer haqqında çox filmlər çəkilib, siyasi traktatlar yazılıb. Yəqin ki, onun ədəbi-siyasi biblioqrafiyası da hər 5 ildən bir təzələnəcək və çox güman ki, professor Qulu Məhərrəmlinin *"Dəmir ledi əfsanəsi"* əsəri də həmin göstəricidə öz yerini alacaq.

***12.10.2021***